**UOT 0069**

**İranə İBRAHİMOVA**

AMEA Nizami Gəncəvi adına
Milli Azərbaycan Ədəbiyyatı Muzeyi
iradaislamzadd@gmail.com

# AZƏRBAYCAN ƏDİBLƏRİNİN NİZAMİ GƏNCƏVİ ADINA MİLLİ AZƏRBAYCAN ƏDƏBİYYATI MUZEYİNDƏKİ PORTRETLƏRİNİN BƏRPA TARİXİ

**Açar sözlər:** portret, rəssam, muzey bərpa, konservasiya
**Keywords:** portrait, artist, museum restoration, conservation
**Ключевые слова:** портрет, художник, музей, реставрация, консервация

**Giriş:** Müasir sosiomədəni institutların – muzeylərin, kitabxanaların, arxivlərin fəaliyyəti təkcə abidələrin toplanması və tədqiqinə deyil, eyni zamanda onların maddi nümunələr kimi mövcudluğunu saxlamağa və uzatmağa yönəlmişdir. Maddi mədənəyyət nümunələrinin məhz fiziki varlığı onların tədqiqinə və əvvəlki nəsillərin mənəvi təcrübəsi kimi dərkinə imkan verir. Müasir cəmiyyət mədəni irsə varislənərkən eyni zamanda onun qorunması öhdəliyini də qəbul etmiş olur.

Mədəni və tarixi irsin qorunması dünya ictimaiyyəti qarşısında duran ən vacib məsələlərdən biridir. Muzey kolleksiyalarında olan maddi nümunələr ildən-ilə daha da yaşlanır və təbii qocalma nəticəsində müəyyən dağılmalara məruz qalır. Eyni zamanda müasir dövrün qlobal problemlərindən olan ekoloji durumun korlanması da maddi-mədəniyyət nümunələrinə təsir göstərərək onların ətraf mühitin neqativ təsirlərindən qorunmasını labüd edir. Bu proseslərin zəiflədilməsi və bu sahədə biliklərin inkişaf etdirilməsi profilindən və yerindən asılı olmayaraq bütün muzeylər üçün prioritet əhəmiyyət kəsb edir.

Məlumdur ki, muzey əşyalarının mühafizəsi məsələləri muzeylərin yaranması ilə eyni zamanda meydana çıxmışdır. Muzey mühafizəsinin təşkili təcrübəsi muzey əşyalarının qocalma prosesinin ləngidilməsinin zəruriliyi ilə əlaqədar olaraq bu sahədə tədqiqatların aparılmasını qaçılmaz edir. Bununla belə, əşyaların mədəni sərvətlər kimi qorunub saxlanmasına gətirib çıxaran ictimai təsəvvürün formalaşması prosesi nisbətən gec başlamışdır.

Azəbaycanda xalqımızın qədim tarix və mədəniyyətini əks etdirən, müxtəlif nəsillərdən olan adamların estetik tərbiyəsinin inkişafına təsir göstərən muzeylərin yaranması prosesi bir əsrlik tarixə malikdır. XX əsrin əvvəllərində ayrı-ayrı şəxslərin təşəbbüsü ilə pərakəndə şəkildə həyata keçirilməyə başlayan bu proses XX əsrin ortalarına doğru dövlət qayğısı ilə daha sürətlə, mərkəzləşdirilmiş və məqsədyönlü şəkildə inkişaf etmişdir. Bu dövrdə bu gün respublikamızın aparıcı muzeylərinə çevrilmiş bir sıra muzeylər – Milli Azərbaycan Tarixi Muzeyi, Milli İncəsənət Muzeyi və d. yaradılmışdır. Onların sırasında bu il yaranmasının 80 illiyini qeyd etdiymiz, Azərbaycanın muzey işi tarixində xüsusi yerlərdən birini tutan, zəngin folklorumuzun janr xüsusiyyətlərini, ədəbiyyat tariximizi, görkəmli sənətkarların, söz ustalarının həyat və yaradıcılığını, bədii irsini əks etdirən eksponatları xüsusi

qayğıyla qoruyub saxlayan, tədqiq və təbliğ edən Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi xüsusi yer tutur.

Muzey nəinki Azəbaycanın, bütün Şərqin dahi söz ustadlarından biri olan Nizami Gəncəvinin anadan olmasının 800 illiyinə həsr olunmuş daimi sərgi-xatırə muzeyinin təşkili haqqında Azərbaycan SSR Xalq Komissarları Sovetinin 1 noyabr 1939-cu il tarixli 4972 №-li sərəncamı ilə yaradılsa da, İkinci Dünya müharibəsinin başlaması səbəbilə açılışı 1945-ci il may ayının 14-nə təsadüf edir.

Muzeyin kolleksiyasında müxtəlif çeşidli rəngarəng və qiymətli eksponatlar – Azərbaycan və başqa Şərq ölkələri sənətkarlarının, şair və alimlərinin nadir əlyazmaları, məşhur xəttatların işləri, klassiklərin əsərlərinə çəkilmiş nəfis miniatürlər, nadir çap kitabları, qəzet və jurnallar, müasir Azərbaycan yazıçılarının əsərləri, Şərqin və Avropanın bir çox dillərində elmi əsərlər, təsviri sənət əsərləri və sənədli fotoşəkillər, yazıçıların şəxsi xatirə əşyaları, xalq yaradıcılığı nümunələri, Azərbaycan ərazisində tapılmış müxtəlif dövrlərə aid sikkələrin kolleksiyası, qədim və süjetli xalçalar, saxsı və bürünc qablar, xalqın çoxəsrlik inkişafı ilə bağlı digər maddi-mədəniyyət abidələri qorunub saxlanmaqdadır.

Muzeyin ekspozisiya zallarında nümayiş etdirilən, N.B.Vəzirov, C.Məmmədquluzadə, Ə.Haqverdiyev, S.S.Axundov, M.S.Ordubadi, A.Şaiq, T.Ş.Simurq, Y.V.Çəmənzəminli, B.Talıbzadə, Ə.Cavad kimi mütərəqqi fikirli ədiblərimizin həyat və yaradıcılıqları ilə bağlı maraqlı faktları, müxtəlif əsrlərdə yaşayıb-yaratmış şair və ədiblərin obrazlarını, onların həyatından alınmış mühüm hadisələri təcəssüm etdirən və eləcə də bəzi əsərlərin mövzusunda çəkilən illüstrasiyalar, istedadlı xalq sənətkarlarının toxuduqları süjetli xalçalar, heykəltəraşlıq, tətbiqi sənət nümunələri, diaqram, xəritə, üç mindən artıq ədəbi-bədii və s. eksponat həm də geniş tədqiqat mənbələridir.

Bundan başqa, muzeyin eksponatları arasında Cəlal Qaryağdının Nizami Gəncəvinin “Xosrov və Şirin” poemasının ölməz qəhrəmanı, uzun əsrlərdən bəri əmək və məhəbbət fədakarlığını təcəssüm etdirən külünglə Bisütunu yaran Fərhadı əks etdirən barelyef, Fuad Əbdürrəhmanovun müəllifi olduğu dahi Azərbaycan şairi Nizami Gəncəvinin heykəli, Azərbaycanın görkəmli fırça ustaları Mikayıl Abdullayevin “Kitabi-Dədə Qorqud” dastanına illüstrasiya, Yusif Hüseynovun “Fatmanın inəyi”, Nizaminin “Xəmsə”si əsasında toxunan “İki bayquşun söhbəti” (rəssamlar Lətif Kərimov və Kazım Kazımzadə), “Fərhad dağı yarır” (rəssamlar Lətif Kərimov və Qəzənfər Xalıqov), “Məcnun vəhşi heyvanlar arasında” (rəssam Lətif Kərimov), “Bəhram Fitnə ilə ovda” (rəssam Əmir Hacıyev), “İsgəndər və Nüşabə gəzintidə” (rəssamlar Lətif Kərimov və Məmmədəli Şirinov) süjetli xalçaları, habelə “Fitnə vərdişinin gücünü isbat edir” (Behzad məktəbinə yaxın, 1479), “Fərhad Xosrovun sarayında” (rəssam Kazım Kazımzadə), “Bəhram və çoban” (rəssam Elbəy Rzaquliyev) və digər süjetli, nəfis şəkildə yaradılan tablolar, Mikayıl Abdullayevin “İmadəddin Nəsimi edam qarşısında”, Tahir Salahovun “Koroğlu döyüş ərəfəsində”, rəssam C.Rəhimovun “Füzuliyə həsr edilmiş vaza”, rəssam Sadıq Şərifzadənin “Divani-Hikmət” ədəbi məclisi, habelə Maral Rəhmanzadənin “Ovçu Pirim nağılına çəkdiyi illüstrasiya” və rəssam İsmayıl Axundovun “Məlik Məmməd” nağılına çəkdiyi illüstrasiya da digər qiymətli eksponatlar kimi yer almaqdadır.

Muzeyin zəngin toplusunda xüsusi qayğı ilə qorunub saxlanan, görkəmli rəssamlarımızın ədiblərimizə, yaxud onların əsərlərinə həsr etdikləri rəsm əsərləri – Güllü Mustafayevanın “Məhsəti xanım Gəncəvinin portreti”, Elçin Aslanovun “Abbasqulu ağa Bakıxanov”, Mikayıl Abdullayevin “Mirzə Fətəli Axundov”,

"Səməd Vurğun", "Mirzə İbrahimov", Oqtay Sadıqzadənin "Xurşud banu Natəvan", Elmir Saruxanovun "Hüseyn Cavid", Tahir Salahovun "Cəfər Cabbarlı Neva sahilində", Ə.Babayevin "Mehdi Hüseyn", Toğrul Nərimanbəyovun "Rəsul Rza" və s. kimi portretlər bizə ədiblərimizin simalarını xatırlatmaqla yanaşı, həm də Azərbaycan rəngkarlığında peşəkar portret janrının mövcudluğundan və inkişafından xəbər verir.

**Dünyada və Azərbaycanda portret janrının inkişafı.** Ümumiyyətlə, portret (frans. portrait – təsvir etmək) rəngkarlıq, heykəltəraşlıq və qrafikanın əsas janrlarından biri olub, mövcud olmuş, yaxud da hazırda mövcud olan hər hansı bir şəxsin, yaxud bir qrup adamın təsviridir. Bu janrın ən zəruri meyarlarından biri təsvirin orijinalla bənzərliyidir ki, buna təkcə təsvir olunanın zahiri görkəminin düzgün verilməsi ilə deyil, eyni zamanda onun mənəvi varlığının, müəyyən dövrü, sosial mühit və milliyyəti tipik və individual cizgilərin dialektik əlaqəsinin açılması ilə nail olunur. Eyni zamanda rəssamın təsvir olunan şəxsə münasibəti, onun portreti təfsiretmə üsulları və yaradıcılıq üslubu ilə təcəssüm olunan dünyagörüşü, estetik baxışları portretdəki obraza müəllifin subyektiv yanaşması ilə əks olunur.

Tarixən portretlərin geniş və çoxplanlı tipologiyası formalaşmışdır: icra texnikası və təyinatı, personajların təsvir xüsusiyyətlərindən asılı olaraq dəzgah (rəsm, qrafik vərəq, büst), monumental (freska, mozaika, heykəl) və s. portretləri, həmçinin medalların, gemmaların üzərində, eləcə də portret miniatürlər mövcuddur.

Personajların sayına görə isə portretlər individual, ikili, qrup portretlərə bölünür. Portretin janr sərhədlərinin hərəkətliliyi bir əsərdə onu digər janrların elementləri ilə qarışdırmağa imkan verir. Məsələn, rəsmdə təsvir olunan obraz onu əhatə edən əşyalar aləmi, təbiət, memarlıq, digər şəxslərlə qarşılıqlı əlaqədə təsvir olunur.

Ümumilikdə portret sənəti vacib, ictimai haisələri dərindən əks etdirməyə qadirdir. Qədim zamanlardan yaranan portret janrı Qədim Şərq, xüsusən də Qədim Misir heykəltəraşlığında yüksək səviyyəyə çatmışdır. Burada əsasən təsvir olunan şəxsin axirət dünyasında "oxşarı" rolunu oynayırdı. Belə dini Qədim Misir portretlərinin möcüzəvi təyinatı müəyyən insanların individual cizgilərinin təsvirinin kahonik tipli proyeksiyasına gətirib çıxartdı. Qədim Yunanıstanda isə klassik dövrdə ideallaşdırılmış şair, filosof və ictimai xadimlərin heykəl portretləri yaradılırdı.

M.ə. V əsrin sonunda qədim yunan portretləri daha da individuallaşır, ellin mədəniyyətində obrazlar daha da dramatikləşir. Qədim Roma portretlərində isə personajın individual cizgiləri dəqiq oturulmuş xarakterlərin psixoloji həqiqiliyi ilə seçilirdi. Orta əsrlər Avropada portret janrının inkişafında xüsusi izlər qoymuşdur.

Çox vaxt bu, bədii kilsə ansamblının ayrılmaz hissəsi kimi təqdim olunurdu. Bu dövrdə yapon rəngkarlığı və heykəltəraşlığında, Orta Asiya, Azərbaycan (Kəmaləddin Behzad), Əfqanıstan, İran (Rza Abbasi), Hindistan sənətkarlarının portret miniatürlərində portret obrazları çox cazibədar idi. Portret sənətinin ən yüksək nailiyyətləri İntibah dövrü ilə əlaqədardır. Renessans dövrünün portret janrının prinsipləri XV əsrdə İtaliyada daha da təsdiqləndi. Yüksək İntibah dövrünün Leonardo da Vinci, Rafael, Corconi və Titsian kimi sənətkarları portret obrazlarının məzmununu dərinləşdirir, onlara güclü intellekt, şəxsi azadlıq, mənəvi harmoniya, bəzən isə daxili dramatiklik bəxş edirdi.

XVII əsr – XVIII əsrin birinci yarısına aid portretlər sifarişçinin obrazının qəsdən ideallaşdırılması, mifolojiləşdirilməsi ilə xarakterizə olunur.

XVIII əsr portretləri yeni realistik tendensialarla seçilməyə başladı. XIX əsrin birinci yarısında isə portret sənətində romantizm ənənələri ilə yanaşı, satirik portret nümunələri meydana çıxdı.

XIX əsrin II yarısında isə milli portret məktəblərində coğrafiyası genişlənmiş çoxlu üslubi istiqamətlər yaranır. XX əsrdə portret janrında yeni dövrün incəsənətində mürəkkəb və ziddiyyətli tendensialar formalaşır.

Portret Azərbaycan rəngkarlığında da həmişə əsas yerlərdən birini tutmuşdur. Rəngkarlığın peşəkar məktəbi yarandığı vaxtdan portret Azərbaycan rəssamlarının yaradıcılığında nəzər-diqqəti cəlb edir. Azərbaycan rəngkarlığında uzun illər ərzində portretlər əsasən yaradıcı ziyalılarla yanaşı, fəhlələrə, kolxozçulara, əmək qabaqcıllarına da həsr olunmuşdur. 1930-1950-ci illərdə Azərbaycan rəssamlarının yaradıcılığında yazıçıların, musiqiçilərin portretləri çoxluq təşkil edirdi. Xüsusən orta əsrlər Azərbaycan klassik poeziyasının nümayəndələri olan Nizami, Vaqif, Füzuli, Nəsiminin, siyasət və elmdə məşhur Şah İsmayıl Xətai, Nəsrəddin Tusinin bərpa olunmuş portretlərini göstərmək olar. Bu, rəssamların öz mədəniyyət tarixinə münasibətindən, həmçinin müsabiqələrin və yubileylərin keçirilməsi ilə əlaqədar olurdu. Belə müsabiqələrin əhəmiyyəti həqiqətən böyükdür, belə ki, biz obrazlı da olsa məşhur Azərbaycan şairlərinin, mədəniyyət və elm xadimlərinin obrazları ilə tanış oluruq. Belə müsabiqələrin hazırlıq prosesində rəssamlar dərin elmi-tədqiqat işi aparır, həqiqəti olduğu kimi yaratmağa çalışırdılar. Bu gün belə portretlər ən yüksək adlara layiq görülür, demək olar, qiymətli sənəd kimi xəzinəyə çevrilmişlər [2].

1960-cı illərdən başlayaraq Azərbaycan rəngkarlığında portret konsepsiyası dəyişir: məşhur mədəniyyət xadimlərinin obrazı ümumiləşdirilmiş formada görünür. Rəssamlar bu və ya digər şəxsiyyətin müəyyən xüsusiyyətlərini qabartmağı üstün tuturdular. Təbii ki, bu tendensiya o dövrdə sovet incəsənətində baş verən ümumi dəyişikliklərlə əlaqədar idi.

Beləliklə, XX əsrdə görkəmli Azərbaycan rəssamlarından Mikayıl Abdullayevin, Salam Salamzadənin, Tağı Tağıyevin, Güllü Mustafayevanın, Nəcəfqulu İsmayılovun, Toğrul Nərimanbəyovun və başqalarının yaradıcılığında portret janrı mühüm yer tuturdu ki, onların arasında da Azərbaycan ədiblərinin portretlərini xüsusilə vurğulamaq olar. Bu portretlərin bir qismi muzey toplularında qorunub saxlanmaqdadır ki, AMEA N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi də onların sırasına daxildir.

**AMEA N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində ədiblərin portretlərinin bərpa tarixi.** Yarandığı gündən muzeydə Azərbaycanın görkəmli şair, yazıçı və dramaturqlarının portretlərindən və onların əsərlərinə çəkilmiş süjetli rəngkarlıq əsərlərindən ibarət zəngin kolleksiya formalaşmışdır.

Azərbaycan ədiblərinin portretlərinin bərpa tarixi bu rəngkarlıq əsərlərinin kolleksiyasının formalaşması ilə sıx bağlıdır. Özünün bərpa emalatxanası olmadığı üçün muzey keçən əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəllərində bir neçə rəngkarlıq əsərinin zəruri bərpa və konservasiya əməliyyatlarını həyata keçirməsi üçün o dövrdə bu işi həyata keçirən yeganə ixtisaslı mərkəz olan Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzinə müraciət edir.

İncəsənət əsərlərinin zaman və təbii təsirlərdən, habelə insanların müdaxilələri nəticəsində yaşlanması qaçılmaz prosesdir. Sözsüz ki, rəngkarlıq əsərlərinin də tərkibinə daxil olan təbii mənşəli maddələrin tədricən dəyişikliklərə uğraması səbəbindən onlar təbii qocalma prosesinə məruz qalır. Bu prosesi dayandırmaq mümkün olmasa da, onu yavaşlatmaq, minimuma endirmək mümkündür ki, bunun

üçün də optimal mühafizə rejimi yaratmaq, konservasiya və bərpa tədbirlərini vaxtında həyata keçirmək lazımdır.

Konservasiya tədbirləri dedikdə ilkin olaraq muzey fond və ekspozisiyalarında əşyaları əhatə edən “Muzey iqlimi”nin yaradılması nəzərdə tutulur. Buraya muzey binaları, fond otaqları, ekspozisiya zalları və s. sahələrdəki temperatur, havanın nisbi rütubətliliyi, atmosferin təmizliyi, işıqlandırma və bioloji rejim daxildir. Bu komponentlərin düzgün kombinəsi incəsənət əsərlərinin muzey fondlarında və ekpozisiya zallarında normal mövcudluğu üçün zəruri olan optimal rejimi yaratmaqla preventiv (ilkin) konservasiya tədbirlərini əhatə etmiş olur. Lakin buna heç də hər zaman nail olunmur və nəticədə əsərlərin təbii qocalma prosesi daha da sürətlənmiş olur. Bu zaman muzey mühafizlərinin köməyinə bərpaçıların həyata keçirdiyi interventiv (bərkidilmə) konservasiya və bərpa tədbirləri gəlir.

Elə 1985-ci ildə vaxtilə Azərbaycan SSR N.Gəncəvi adına Ədəbiyyat muzeyi adlanan muzeyin rəhbərliyinin müraciəti əsasında Bərpa Mərkəzinə gətirilən rəngkarlıq əsərlərinin – “Həsən bəy Zərdabi “Əkinçi”nin mətbəəsində” (müəllif: N.İsmayılov), “Mirzə Ələkbər Sabir Nur kitabxanasında” tablolarının və “Rəsul Rza”nın (müəllif: T.Nərimanbəyov), “Məmməd Arif”in (müəllif: B.Mirzəzadə), “Mikayıl Müşfiq”in (müəllif: O.Sadıqzadə), “Nəcəf bəy Vəzirov”un (müəllif: B.Mirzəzadə), “M.F.Axundov”un (müəllif: M.Abdullayev) portretlərinin ilkin vizual müayinəsi zamanı onların rəng qatında müşahidə olunan qabarma, qovuqlanma və itkilərin də səbəbi kimi zamanla baş verən təbii qocalma ilə yanaşı temperatur və nisbi rütubətin mövsüm dəyişiklikləri zamanı tərəddüdləri, baş verən qəfil temperatur sıçramaları müəyyən edilmişdi. Sadalanan portretlər arasında rəng qatının zədələnmələri və itkiləri daha çox izlənilən əsər Xalq rəssamı Oqtay Sadıqzadənin müəllifi olduğu “Mikayıl Müşfiq”in portretidir [3].

Vaxtilə həm valideynləri, həm özü repressiyaya məruz qalmış Oqtay Sadıqzadənin xəyalları, mənəvi dünyası nakam şairimiz, repressiya qurbanı olmuş Mikayıl Müsfiqin poeziyası ilə sanki təlatümə gəlmiş və o, Mikayıl Müşfiq haqqında bütün düşüncələrini bu kətana köçürərək onun portretini yaratmışdır. Əsərdə Müşfiq əlində qələm, fikrə getmiş, nəzərləri uzaqlara dikilmiş halda təsvir olunmuşdur. Əsərə baxarkən tamaşaçıda belə hiss yaranır ki, bir qədər keçəcək, Müşfiq xəyallarından süzülüb gələn misraları dilə gətirəcək: “Yenə o bağ olaydı”... Onu da qeyd edim ki, tablonun kətanının arxa üzünü müayinə edərkən, yəqin ki, muzey əməkdaşları tərəfindən orada qara rənglə əsərin adı məhz “Yenə o bağ olaydı” kimi qeyd olunmuşdur. Bütün bərpa proseslərini müvəffəqiyyətlə keçdikdən sonra əsər digər tablolarla birlikdə muzeyə qaytarılaraq kolleksiyadakı yerini tutmuşdur.

1987-ci ildə Azərbaycan ədiblərinin portretlərindən ibarət rəngkarlıq əsərlərinin növbəti nümunələri bərpa və konservasiya edilmələri üçün elmi bərpa mərkəzinə gətirilmişdi. Bunlar “Maksim Qorki Bakıda” (müəllif: M.Abdullayev) tablosu, “Abdulla Şaiq” (müəllif: T.Kərimov), “Aleksandr Puşkin” (müəllif: B.Əliyev), “Mirzə Fətəli Axundov” (müəllif: A.Serebrin), 1989-cu ildə isə “Abbasqulu ağa Bakıxanov”un (müəllif: M.Nəcəfov) portretləri idi. Daxil olduqları zaman bu əsərlərin hər birinin üzərində rəng qatında qovuqlanma və itkiləri, qoruyucu lak örtüyünün saralması və s. zədələri izlənilirdi ki, həyata keçirilən bərpa prosesləri – təmizləmə, bərkidilmə, bəzi əsərlərdə mövcud partlaqların yapışdırılması, bərpa zəmininin və qoruyucu lakın vurulması, tonlaşdırma nəticəsində mövcud zədələr aradan qaldırılaraq əsərlərə əvvəlki görünüşləri qaytarılmışdır.

1990-cı ildə Azərbaycan KP MK "Nizami Gəncəvinin anadan olmasının 850 illiyi haqqında" qərar qəbul etmis, 1991-ci ildə yubiley tədbirlərinin keçirilməsi nəzərdə tutulmuşdu. Bununla əlaqədar Azərbaycan SSR N.Gəncəvi adına Ədəbiyyat muzeyi sərgilənməsi nəzərdə tutulan, Azərbaycanın müxtəlif görkəmli rəssamları tərəfindən dahi Nizami Gəncəvinin əsərlərinə çəkilmiş bir neçə süjetli tablo üzərində profilaktik təmizlənmə və bərpa prosesləri həyata keçirilməsi məqsədilə bərpa mərkəzinə təhvil verilmişdir. Qısa zaman çərçivəsində Güllü Mustafayevanın "Leyli və Məcnun məktəbdə", M.Babayevin "Məcnunun atası ilə görüşü", S.K.Petersenin "Bəhram və çoban", Böyükağa Mirzəzadə ilə Petersenin "Sultan Səncər və qarı" Böyükağa Mirzəzadə və Sadıq Şərifzadənin birgə işlədikləri "Nizami Qızıl Arslanın qarşısında", Qəzənfər Xalıqovun "Şirvanşahın elçisi Nizaminin yanında" süjetli tabloları konservasiya və bərpa olunaraq muzeyə qaytarılmışdır.

1993-cü ildə Elmi Bərpa Mərkəzinə muzeyin toplusundan bərpa və konseravsiya məqsədilə yenidən çoxlu sayda rəngkarlıq əsərləri daxil olmuşdu. Onların böyük əksəriyyətini isə Azərbaycan ədiblərinin fərqli rəssamlar tərəfindən çəkilmiş portretləri təşkil edirdi. Rəssam Hüseyn Əliyevin 1957-ci ildə başlayıb 1967-ci ilə qədər üç variantda işləyib bitirdiyi "Məhəmməd Füzuli"nin portreti (sonuncu variant), Salam Salamzadənin müəllifi olduğu "Xaqani Mədain xarabalıqlarında" süjetli tablosu və "Xətib Təbrizi"nin portreti, Baba Əliyevin "Abbasqulu ağa Bakıxanov", Sadıq Şərifzadənin yaratdığı "Məhəmməd Füzuli", Hafiz Zeynalovun "Səməd Vurğun", Böyükağa Mirzəzadənin "Abdulla Şaiq", Əbdül Xaliqin (Əbdülxaliq Əbdül) "Süleyman Rəhimov", C.Babayevin "Məhəmməd Hadi", Vladimir Kaydalovun "Əlişir Nəvai", M.Nəcəfovun "Mir Möhsün Nəvvab" Odtəkin Ağababayevin "Mehdi Seyidzadə" portretləri bərpaçıların gərgin fəaliyyəti nəticəsində yenidən muzeyin ekspozisiyasında öz yerlərini almaları və tamaşaçılara təqdim olunmaları üçün lazımi vəziyyətə gətirilmişdir. Onu da qeyd edim ki, bu əsərlərin arasında ədiblərin portretləri ilə yanaşı Səttar Bəhlulzadənin xəttat və şair "Mir Əli Təbrizi"ni, C.Babayevin görkəmli heykəltəraş, Nizami Gəncəvinin heykəllərinin müəllifi olan "Fuad Əbdürrəhmanov"u, K.Xanlarovun Bəhmənyar, Nizami Gəncəvi, Füzuli, Abbasqulu ağa Bakıxanov, Mirzə Kazım bəy, Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabinin fəlsəfi görüşləri haqqında geniş elmi araşdırma aparmış alim "Heydər Hüseynov"u təsvir etdikləri rəngkarlıq əsərləri, habelə K.Xanlarovun "Məzdək edam öncəsi Xosrov Ənuşirəvanın çadırında" süjetli tablosu da yer almışdı. Onu da qeyd edim ki bu əsərlərin bir çoxu 1940-cı illərdə muzeyin sifarişi ilə ərsəyə gəlmişdir. Bu barədə 1992-ci ildə nəşr edilmiş "Azərbaycan incəsənəti" kitabında yazılır: "Azərbaycan rəssamlığının inkişafında Nizami Gəncəvinin anadan olmasının 800 illiyi ilə əlaqədar olan tədbirlərin əhəmiyyətini bir daha qeyd etməliyik. Böyük şairin adını daşiyan ədəbiyyat muzeyinin ekspozisiyası üçün rəssamlar bir sıra tematik şəkillər, portretlər, rəsmlər yaratmışlar" [1, s.257].

Həmin illərdə muzeyə daxil olan tematik tablolardan biri olan "Nizami və yaşlı aşıq" əsəri 1996-cı ildə bəpra üçün elmi bərpa mərkəzinə gətirilmiş, vizual müayinədən sonra üzərində təmizləmə, rəng qatının bərkidilməsi, bərpa zəminin vurulması, qoruyucu lakla örtülmə və tökülmüş rəng qatının tonlaşdırılması kimi bərpa prosesləri həyata keçirilmiş və əsər sonra muzeyə qaytarılmışdır. Lakin daşınma zamanı əsər səhlənkarlıq nəticəsində mexaniki zədələnməyə məruz qalmış və yenidən bərpaçı-rəssamların səyi ilə əvvəlki görünüşünə qaytarılmış və muzeyin ekspozisiyasında öz yerini tutmuşdur.

Nəticədə muzeyin ekspozisiyasında bu əsərlər tamaşaçılara qüsursuz, tam şəkildə təqdim olunur.

Beləliklə, yarandığı gündən 80 illik tarixi boyunca Azərbaycan ədəbiyyatı məbədi sayılan AMEA-nın N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi həm də Azərbaycanda rəngkarlıq sənətinin, xüsusən də portret janrının müəyyən inkişaf mərhələlərini özündə əks etdirən rəsm əsərlərinin də zəngin xəzinəsinə çevrilmişdir. Bu xəzinənin gələcək nəsillərə çatdırılmasında isə muzey mühafizləri ilə bərpaçı-rəssamların birgə səylərinin rolu isə danılmazdır.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT:

1. Azərbaycan incəsənəti.// Monoqrafiya// Kərimov K.C., Əfəndiyev R.S., Rzayev N.İ., Həbibov H.D./Bakı: "İşıq", 1992, c.344
2. Kərimova R. Azərbaycan sovet portret boyakarlığı: Azərbaycan sovet rəssamlığında portret janrının inkişafı (1946-1960-cı illər). Bakı: Azərb. EA, 1964, 178 s.
3. MSXƏEBM-in elmi arxivi, J-112 inventar nömrəli əşyanın elmi bərpa pasportu, Bakı, 1985
4. MSXƏEBM-in elmi arxivi, elmi bərpa pasportları, Bakı, 1987
5. MSXƏEBM-in elmi arxivi, elmi bərpa pasportları, Bakı, 1990
6. MSXƏEBM-in elmi arxivi, elmi bərpa pasportları, Bakı, 1993
7. Schneider, Norbert. The Art of the Portrait: Masterpieces of European Portrait-painting, 1420-1670. Taschen, 2002
8. https://nizamimuseum.az/

***Irana Ibrahimova***

### History of reconstruction of portraits of Azerbaijani literatures in the National Museum of Azerbaijani Literature named after Nizami Ganjavi

***S u m m a r y***

This year the National Museum of Azerbaijan literature named after Nizami Ganjavi celebrate 80th anniversary. In 80 years has grown beyond the local borders to become a well-known museum with its collection in the world. There are many portraits of Azerbaijani litterateurs among the museum objects. The portrait depicts the external appearance (and through it the inner world) of a concrete, real person that existed in the past or exists in the present. Paintings as they age become damaged due to the natural degradation of the constituent materials or by physical forces applied (accidental and intentional) to the art work. The condition of museum objects is constantly threatened by influences from the environment. These negative environmental conditions can be summarized as: extreme fluctuations of temperature and relative humidity, exposure to high levels of daylight, artificial light, ultraviolet and infrared radiation, the presence of mould and museum pests such as insects and rodents; fire, burglary and vandalism. In studying paintings museum curators are often confronted with issues regarding restoration history, reconstruction and technical examination. This article deals with the increasing importance of the interaction with

painting restorers in resolving the portrait's genre's questions. The subject is being illustrated by paintings of famous artists of Azerbaijan from 1940-60$^{s}$ at the National Museum of Azerbaijan literature named after Nizami Ganjavi

***Ирана Ибрагимова***

**История реконструкции портретов азербайджанских писателей в Национальном музее азербайджанской литературы имени Низами Гянджеви**

***Р е з ю м е***

В этом году Национальный Музей Литературы Азербайджана имени Низами Гянджеви отмечает 80-летний юбилей. За 80 лет музей вырос за пределы местных границ и стал известным музеем со своей коллекцией в мире. Среди музейных предметов много портретов азербайджанских литераторов. В портрете изображается внешний облик (а через него и внутренний мир) конкретного, реального, существовавшего в прошлом или существующего в настоящем человека. Картины, поскольку они стареют, получает повреждения в результате естественной деградации составляющих материалов или от физических сил, случайно или преднамеренно приложенных к произведению искусства. Состоянию музейных экспонатов постоянно угрожает влияние окружающей среды. Эти негативные экологические факторы можно резюмировать следующим образом: резкие колебания температуры и относительной влажности, интенсивное воздействие дневного и искусственного света, ультрафиолетового и инфракрасного излучения, наличие плесени и музейных вредителей, таких как насекомые и грызуны; пожар, кражи и вандализм. При изучении картин кураторы музеев часто сталкиваются с вопросами, касающимися истории реставрации, реконструкции и технической экспертизы. В данной статье рассматривается возрастающая важность взаимодействия реставраторов с живописью при решении вопросов связанных с историей портретного жанра. Тема иллюстрируется картинами известных художников Азербайджана написанных 1940-60-х годов и находящейся в Национальном Музее Азербайджанской Литературы имени Низами Гянджеви.